**Azərbaycan Respublikası adından**
**Q Ə T N A M Ə**

İş № 2(103)-     /2019

“    ”            2019-cu il                                                                  Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin mülki kollegiyası

Hakimlər Raqib Əliddin oğlu Qurbanovun sədrliyi və məruzəsi ilə, Etibar Qəzənfər oğlu Nəbiyev və Aida Əli qızı Hüseyndən ibarət tərkibdə,

məhkəmə iclas katibi Lalə Adil qızı Əbdürrəhimovanın katibliyi ilə,

iddiaçı XXXX oğlunun, iddiaçının nümayəndəsi və vəkili XXXX oğlunun, cavabdehin nümayəndəsi və vəkili XXXX oğlunun iştirakı ilə,

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 2(006)-     /2018 saylı mülki iş üzrə qəbul etdiyi 29 avqust 2018-ci il tarixli qətnaməsindən iddiaçı XXXX oğlu tərəfindən verilmiş apellyasiya şikayətinə əsasən mülki işə Bakı Apellyasiya Məhkəməsinin binasında, açıq məhkəmə iclasında baxaraq,

**m ü ə y y ə n   e t d i:**

İddiaçı XXXX oğlu cavabdeh «XXXX» Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, 55129,83 ABŞ dolları ödənilməmiş əmək haqqının, 290783,202 ABŞ dolları gecikdirilmiş hər gün üçün 1 faiz hesablanmaqla əmək haqqının gecikdirilməsinə görə maddi zərərin, ümumilikdə 345913,32 ABŞ dolları pul vəsaitinin və 30000 manat mənəvi zərərin cavabdeh “XXXX” MMC-dən tutularaq ona ödənilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 29 avqust 2018-ci il tarixli 2(006)-     /2018 saylı qətnaməsi ilə iddia təmin edilməmişdir.

İddiaçı XXXX oğlu həmin qətnamədən apellyasiya şikayəti vermişdir.

Apellyasiya şikayətində işin faktiki halları göstərilmiş və əlavə olaraq qeyd olunmuşdur ki, birinci instansiya məhkəməsi maddi və prosessual hüquq normalarını pozmuş, işin hallarını tam və hərtərəfli araşdırmamışdır.

Məhkəmə iclasında iddiaçı XXXX oğlu və onun nümayəndəsi və vəkili XXXX oğlu apellyasiya şikayətini müdafiə etdilər, cavabdehin nümayəndəsi və vəkili XXXX oğlu isə apellyasiya şikayətinə etiraz etdi.

Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya şikayəti qismən təmin edilməlidir.

Belə ki, iş materiallarına əsasən müəyyən olunur ki, XXXX oğlu XXXX Respublikası vətəndaşıdır və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən ona Azərbaycan Respublikasında yaşaması üçün 07 fevral 2014-cü il tarixdə XXXX seriya və nömrəli müvəqqəti yaşama icazəsi verilmişdir. XXXX oğlu 19 fevral 2014-cü il tarixdən “XXXX” MMC şirkətinə texnik vəzifəsinə qəbul edilmiş, onunla müddətli əmək müqaviləsi bağlanmışdır. Əmək müqaviləsində əmək haqqının 380 manat məbləğində olması göstərilmişdir. “XXXX” MMC-nin 06 fevral 2016-cı il tarixli, XXXX saylı əmri ilə XXXX oğlu 06 fevral 2016-cı il tarixdən Əmək Məcəlləsinin 68.2-ci maddəsinin “a” bəndinə əsasən işdən azad edilmişdir. XXXX oğlu 20 aprel 2016-cı il tarixdən yenidən “XXXX” MMC şirkətinə texnik vəzifəsinə qəbul edilmiş, onunla müddətli əmək müqaviləsi bağlanmışdır. Əmək müqaviləsində əmək haqqının 380 manat məbləğində olması göstərilmişdir. “XXXX” MMC-nin 21 noyabr 2017-ci il tarixli, XXXX saylı əmri ilə XXXX oğlu 21 noyabr 2017-ci il tarixdən Əmək Məcəlləsinin 68.2-ci maddəsinin “a” bəndinə əsasən işdən azad edilmişdir.

İddiaçı bildirir ki, cavabdehlə arasında olan razılığa əsasən aylıq əmək haqqının məbləği 3500 ABŞ dolları müəyyən olunmuşdur. Lakin daha çox vergi və dövlət sosial

sığorta haqqının ödənilməməsi üçün əmək müqaviləsində əmək haqqının məbləği işəgötürən tərəfindən 350 manat göstərilmişdir. 3500 ABŞ dollarının 350 manat hissəsi "XXXX" MMC-nin "XXXX" ASC-də olan bank hesabı vasitəsi ilə onun maaş kartı hesabına köçürülmüş, qalan vəsait isə şəxsən və ya onun XXXX Respublikasında fəaliyyət göstərən "XXXX" Bankında olan hesabına köçürülməklə ödənilmişdir. Əmək müqaviləsinə xitam verilmədən öncə "XXXX" MMC-nin direktoru XXXX tərəfindən işçiyə ödənilməmiş əmək haqqının məbləği üzrə son haqq-hesab aparılmış və həmin gün üçün işəgötürən tərəfindən ona 58129,83 ABŞ dolları məbləğində pulun ödənilməli olduğu müəyyən edilmişdir. Bu barədə XXXX tərəfindən akt ("açıklama") tərtib edilərək, imzalanmışdır. Belə ki, həmin akta əsasən 2016-cı ilin sonuna qədər cavabdeh tərəfindən ona verilməmiş əmək haqqının məbləği 39950,04 ABŞ dollarından ibarət olmuşdur. 01 yanvar 2017-ci il tarixdən 21 noyabr 2017-ci il tarixədək olan müddət üzrə isə ona ödənilməli olan pul 37518,83 ABŞ dolları təşkil etmişdir. Həmin pulun 19338,32 ABŞ dolları hissəsi ona ödənilmiş, qalan 18179,80 ABŞ dolları hissəsi ödənilməmişdir. Odur ki, işəgötürənlə bağlanılmış əmək müqaviləsinə xitam verilərkən cavabdehin 2016-cı ilədək olan müddət üçün 39950,04 ABŞ dolları, 2017-ci il üçün isə 18179,80 ABŞ dolları olmaqla, cəmi 58129,83 ABŞ dolları məbləğində borcu olmuşdur. Bu pulun 3000 ABŞ dolları 01 dekabr 2017-ci il tarixdə "XXXX Bankası"nda olan bank hesabına köçürülmüşdür. Qalan pul isə hələ də ödənilməmişdir. Həmin pulun ödənilməsinə dair cavabdehə şifahi və yazılı müraciətlər etmiş, lakin nəticəsiz qalmışdır. Odur ki, bununla bağlı məhkəməyə müraciət etmək məcburiyyətində qalmışdır. İşəgötürən tərəfindən əmək haqqının vaxtında ödənilməməsi şəxsi və ailə həyatında ciddi maddi və mənəvi problemlərin yaranmasına səbəb olmuşdur. Belə ki, işəgötürən tərəfindən maaşının vaxtında verilməməsi ilə əlaqədar o, uzun müddət ailə və şəxsi həyatında gərgin narahatlıq və stress yaşamış, mənəvi sarsıntı və iztirab keçirmiş, bu isə ona mənəvi ziyan vurmuşdur. Bununla yanaşı, işəgötürən tərəfindən onun əmək haqqının ödənilməsinin qanunsuz olaraq gecikdirilməsinə görə hər gecikdirilmiş gün üçün ödənc verilməlidir. Yəni 2016-cı ilədək olan müddət üçün ödənilməmiş 39950,04 ABŞ dolları əmək haqqının 2017-ci ilin yanvar ayından 2018-ci ilin avqust ayınadək gecikdirilməsinə görə hər gün üçün 1 faiz hesablanmaqla 241697,742 ABŞ dolları, 2017-ci ilin yanvar ayından noyabr ayınadək olan müddət üçün ödənilməmiş 18179,80 ABŞ dolları əmək haqqının gecikdirilməsinə görə isə hər gün üçün 1 faiz hesablanmaqla 49085,46 ABŞ dolları, ümumilikdə 290783,202 ABŞ dolları pul əlavə olaraq cavabdeh tərəfindən ona ödənilməlidir.

Cavabdehin nümayəndəsi iddiaya etiraz edir və bildirir ki, 19 fevral 2014-cü il tarixdə tərəflər arasında bağlanan əmək müqaviləsinin 4.1-ci bəndinə əsasən işçiyə, yəni iddiaçı XXXXtə hər ay 380 manat məbləğində əmək haqqı ödənilməsi razılaşdırılmış, ona hər hansı bir xarici valyutada, digər həcmdə əmək haqqı ödəniləcəyi nəzərdə tutulmamış və həmin müqavilənin bağlanması ilə bağlı əmək müqaviləsinin qeydiyyata alınmasına dair elektron informasiya sisteminin 12 sentyabr 2014-cü il tarixli XXXX nömrəli elektron informasiya bildirişində, eləcə də sonrakı 19 fevral 2015-ci il tarixli XXXX nömrəli 20 aprel 2016-cı il tarixli XXXX nömrəli və 18 may 2017-ci il tarixli XXXX nömrəli elektron informasiya bildirişlərində də bu fakt rəsmi olaraq təsdiqlənmişdir. Faktiki olaraq bu göstərilənlərdən başqa əmək haqqının yüksək həddə müəyyənləşdirilməsinə dair hər hansı bir rəsmi sənədin və ya başqa bir sübutun mövcud olmaması iddiaçı XXXXtin bu tələbinin əsassız olmasını təsdiq edir. XXXX "XXXX" MMC-dən qanunvericilik qaydasında əmək müqaviləsi üzrə müəyyən olunan əmək haqqı məbləğini mütəmadi olaraq tam almış və bu hallar onun iddia ərizəsindəki etirafında da öz təsdiqini tapmışdır. XXXXtin iddia ərizəsində qeyd etdiyi, XXXX tərəfindən imzalanan və "açıklama" kimi göstərilən vərəqin "XXXX" MMC-yə hər hansı bir aidiyyatı yoxdur. Ona görə ki, bu vərəq XXXX Respublikasının vətəndaşı XXXX adlı şəxsin adından imzalansa da, onun "XXXX" MMC-nin direktoru olması, sənəd kimi bu kağızın "XXXX" MMC-də müvafiq nömrə altında nömrələnib qeydə alınması, möhürü və ştampı ilə təsdiqlənməmiş və cavabdeh "XXXX" MMC-nin maliyyə-mühasibat hesabatı sənədlərinə mənsub olmamış, həmçinin bu kağızda

XXXX, XXXX adlı şəxslərə də pul verilməsi qeyd olunmuşdur. Halbuki, həmin şəxslərin "XXXX" MMC-yə hər hansı bir aidiyyatı yoxdur. Ümumiyyətlə, "XXXX" MMC-də hər hansı bir imtiyazla fərqləndirilərək, kiməsə hər hansı bir xarici valyutada və yüksək məbləğdə əmək haqqının ödənilməsi hallarına yol verilməmişdir. Həmçinin, "XXXX" MMC-nin XXXX Respublikasındakı "XXXX Bankası"nda və ya hər hansı bir bankında cari, hesablaşma və ya başqa bir hesabı yoxdur. Ona görə də, bu və ya hər hansı bir başqa formada XXXXdəki banklardan "XXXX" MMC-nin XXXXə pul ödəməsi barədə iddiaçının irəli sürdüyü dəlillər tamamilə əsassızdır.

Məhkəmə kollegiyası hesab edir ki, iddia qismən əsaslıdır.

Belə ki, iş materiallarında olan "XXXX" Bankasının pul vəsaitlərini köçürmə sənədlərindən müəyyən olunur ki, "XXXX" MMC-nin direktoru XXXX tərəfindən XXXXtin hesabına 05.05.2016-cı il tarixdə 1500 ABŞ dolları, 12.07.2016-cı il tarixdə 2500 ABŞ dolları, 09.09.2016-cı il tarixdə 1000 ABŞ dolları, 01.12.2017-ci il tarixdə 3000 ABŞ dolları, 26.07.2017-ci il tarixdə 7000 ABŞ dolları, 22.01.2018-ci il tarixdə 952,45 ABŞ dolları məbləğində pul vəsaitləri köçürülmüşdür.

Eyni zamanda iş materiallarında olan XXXX oğlunun adına hesab-hərəkət dövriyyəsinə dair "XXXX" MMC-nin direktoru XXXX tərəfindən tərtib edilərək, imzalanmış akta ("açıklama") əsasən müəyyən olunur ki, XXXXtə ödənilməmiş əmək haqqının məbləği üzrə son haqq-hesab aparılmış və XXXXtə ödənilməli olan, lakin ödənilməmiş əmək haqqı 2016-cı ilədək olan müddət üçün 39950,04 ABŞ dolları, 2017-ci il üçün isə 18179,80 ABŞ dolları olmaqla, cəmi 58129,83 ABŞ dolları təşkil etmişdir. Həmin akta əsasən müəyyən olunur ki, XXXXtə ödənilməli olan aylıq əmək haqqı 3500 ABŞ dolları təşkil etmişdir.

Göründüyü kimi tərəflər arasında bağlanmış əmək müqaviləsində iddiaçının əmək haqqı rəsmi olaraq 380 manat qeyd olunsa da, faktiki olaraq "XXXX" MMC-nin direktoru XXXX tərəfindən tərtib edilərək, imzalanmış akt ("açıklama") və pul vəsaitlərinin köçürmə sənədlərindən müəyyən olunur ki, iddiaçının əmək haqqı 3500 ABŞ dolları təşkil etmişdir.

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş "XXXX" MMC-nin direktoru XXXXöz ifadəsində bildirmişdir ki, XXXX oğlu 19 fevral 2014-cü il tarixdən "XXXX" MMC şirkətinə texnik vəzifəsinə qəbul edilmiş, 06 fevral 2016-cı il tarixdən Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68.2-ci maddəsinin "a" bəndinə əsasən işdən azad edilmiş, 20 aprel 2016-cı il tarixdən yenidən "XXXX" MMC şirkətinə texnik vəzifəsinə qəbul edilmiş və 21 noyabr 2017-ci il tarixdən Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68.2-ci maddəsinin "a" bəndinə əsasən işdən azad edilmişdir. XXXXtlə "XXXX" MMC şirkəti arasında bağlanmış əmək müqavilələrinə əsasən aylıq əmək haqqı 380 manat müəyyənləşdirilmiş və həmin məbləğdə əmək haqqı vaxtlı-vaxtında ödənilmişdir. İddiaçı XXXXin iddia etdiyi guya xarici valyutada əmək haqqı alması nə əmək müqaviləsində, nə də hər hansı başqa razılaşmada öz əksini tapmamış və bu əsassızdır. İddiaçı XXXX 16 dekabr 2013-cü il tarixdən 20 noyabr 2017-ci il tarixədək XXXX Cümhuriyyətinin "XXXX" XXXX.ve XXX. ve XXXX şirkətinin də işçisi olmuş və onun iddia ərizəsində qeyd etdiyi əmək haqqı borcu XXXX Cümhuriyyətində fəaliyyət göstərən həmin şirkətlə bağlı olmuşdur.

İlk olaraq kollegiya qeyd edir ki, iddiaçının təqdim etdiyi aktdakı ("açıklama") XXXXın adından olan imza və ad, soyad qeydləri cavabdeh tərəfindən mübahisələndirilmir.

Eyni zamanda həmin akt "XXXX" MMC-nin möhürü ilə təsdiq olunmasa da, həmin aktın açıqlama hissəsində pul vəsaitlərinin XXXX oğluna maaş ödəməsi və maaş avansı kimi ödənilməli olduğu açıq-aşkar qeyd olunmuşdur. Həmçinin işin mübahisəsiz halıdır ki, XXXX"XXXX" MMC-nin direktorudur və eyni zamanda XXXX oğlu ilə "XXXX" MMC arasında əmək müqaviləsi bağlanmışdır. Bu faktlar isə təsdiq edir ki, XXXXtərəfindən tərtib edilərək, imzalanmış akt ("açıklama") məhz "XXXX" MMC ilə bağlanmış əmək müqaviləsi üzrə ödənilməli olan, lakin ödənilməmiş əmək haqqını təsdiq edir. Bundan başqa həmin aktda hesablamalar manatla aparılmışdır. Belə olan halda isə XXXX Respublikasında təsis olunmuş "XXXX" XXXX ve XXXX şirkəti ilə XXXX Respublikası vətəndaşı XXXX oğlu arasında məhz XXXX Respublikası ərazisində Azərbaycan manatı məzənnəsində əmək

haqqının ödənilməsi barədə əmək müqaviləsinin bağlanması və əmək haqqının AZN-lə ödənilməsi həm məntiqi, həm də inandırıcı deyildir. Eyni zamanda məhkəmə iclasında da cavabdehin nümayəndəsi və vəkili bunu ağlabatan şəkildə izah edə bilmədi. Bu baxımdan kollegiya hesab edir ki, həmin aktın (açıklamanın) hazırkı işə aidiyyatı olmaması ilə bağlı cavabdeh tərəfin dəlilləri tamamilə əsassızdır.

Bu baxımdan kollegiya hesab edir ki, XXXX oğlunun əmək haqqının miqdarı 3500 ABŞ dolları təşkil etmiş və ona ödənilməli olan, lakin ödənilməmiş cəmi əmək haqqı 58129,83 ABŞ dolları təşkil etmişdir.

Eyni zamanda iddiaçı bildirir ki, ona ödənilməli olan 58129,83 ABŞ dolları əmək haqqından 3000 ABŞ dolları 01 dekabr 2017-ci il tarixdə “XXXX Bankası”nda olan bank hesabına köçürülmüşdür. Qalan 55129,83 ABŞ dolları əmək haqqı isə hələ də ödənilməmişdir.

Göründüyü kimi iddiaçı 55129,83 ABŞ dolları əmək haqqını almamışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinin VI hissəsinin tələblərinə görə hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.

Əmək Məcəlləsinin 172-ci maddəsinin 1-ci hissəsində isə təsbit olunmuşdur ki, aylıq əmək haqqı işçilərə, bir qayda olaraq, iki hissəyə bölünərək (avans olaraq və qalan hissəsi məbləğində) on altı gündən çox olmayan vaxt fasiləsi ilə ayda iki dəfə verilməlidir. Əmək haqqı illik dövr üçün hesablanan işçilərə isə ayda bir dəfədən az olmayan müddətdə verilməlidir.

Bu baxımdan kollegiya hesab edir ki, iddiaçı ona ödənilməli olan lakin ödənilməyən 55129,83 ABŞ dolları əmək haqqının ödənilməsini tələb etməkdə haqlıdır.

Həmçinin kollegiya hesab edir ki, iddiaçı tərəfindən irəli sürülmüş əmək haqqının vaxtında verilmədiyi üçün hər gecikdirilmiş günə görə hesablanmış məbləğin ən azı bir faizi həcmində gündəlik ödəncin verilməsi ilə bağlı tələblər də əsaslıdır.

Belə ki, Əmək Məcəlləsinin 172.5-ci maddəsinə əsasən əmək haqqının verilməsi işəgötürənin təqsiri üzündən gecikdirildikdə və bu hal fərdi əmək mübahisəsi yaratmayıbsa, hər gecikdirilmiş gün üçün işçiyə əmək haqqının azı bir faizi məbləğində ödənc verilməlidir. Bu hal əmək mübahisəsi yaratdıqda həmin mübahisə bu Məcəllənin «Əmək mübahisələri» bölməsində nəzərdə tutulan qaydada həll edilir.

Həmin Məcəllənin 195-ci maddəsinin “d” bəndinə görə işçinin əmək haqqı və digər ödənişləri işəgötürən tərəfindən düzgün müəyyən edilmədikdə, habelə əsassız və qanunsuz olaraq verilmədikdə işəgötürən əmək münasibətləri prosesində işçiyə vurulan ziyana görə tam maddi məsuliyyət daşıyır.

İddiaçıya 2016-cı ilədək ödənilməli olan, lakin ödənilməmiş cəmi 39950,04 ABŞ dolları əmək haqqının 28 avqust 2018-ci il tarixdə (iddia tələbi həcmində) verilməli olduğunu nəzərə aldıqda müəyyən olunur ki, 2016-cı ilədək iddiaçıya ödənilməli olan əmək haqqı 605 gün gecikdirilmişdir.

Eyni qayda ilə hesabladıqda müəyyən olunur ki, 2017-ci ilin yanvar ayından 28 avqust 2018-ci il tarixədək (iddia tələbi həcmində) olan müddət üçün iddiaçıya ödənilməli olan, lakin ödənilməmiş cəmi 18179,80 ABŞ dolları əmək haqqı 605 gün gecikdirilmişdir. Lakin iddiaçı 18179,80 ABŞ dolları əmək haqqının yalnız 270 gün üçün gecikdirilmiş faizini tələb etmişdir (halbuki, iddiaçı 605 gecikdirilmiş gün üçün faiz tələb edə bilərdi).

İddiaçının cavabdeh təşkilatda işlədiyi müddətdə ona ödənilməli olan əmək haqlarının gecikdirildiyini nəzərə alaraq və Əmək Məcəlləsinin 172 və 195-ci maddələrinə əsaslanaraq kollegiya hesab edir ki, hər itirilmiş gün üçün əmək haqqının 1%-i həcmində ödənc hesablanmaqla, cəmi 290783,2 ABŞ dolları dəbbə pulu cavabdehdən alınaraq iddiaçıya ödənilməlidir.

Həmin məbləğ isə aşağıda göstərilən qaydada hesablanmışdır:

1. 605 gün x 39950,04 ABŞ dolları = 24169774 x 1% = 241697,74 ABŞ dolları;
2. 270 gün x 18179,80 ABŞ dolları = 4908546 x 1% = 49085,46 ABŞ dolları;

3. 241697,74 + 49085,46 = 290783,2 ABŞ dolları.

Mənəvi zərərin ödənilməsi tələbləri ilə bağlı kollegiya qeyd edir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 31 may 2002-ci il tarixli qərarında izah olunmuşdur ki, mənəvi zərər adətən vətəndaşların şəxsi qeyri-əmlak hüquqlarının pozulması nəticəsində əmələ gəlir. Mənəvi zərər qeyri əmlak zərəri olmaqla iqtisadi məzmun və dəyər kəsb etməyən hüquq pozuntusudur. Belə zərər vətəndaşa anadangəlmə və ya qanun əsasında ona məxsus olan qeyri-maddi nemətlərə aid (şərəf, ləyaqət, işgüzar nüfuz, şəxsi ailə sirri, hərəkət etmək azadlığı, yaşayış yeri seçmə, ad hüququ, müəlliflik hüququ, sair şəxsi qeyri-əmlak hüquqlar və digər maddi nemətlər) hüquqlarını pozmaqla fiziki şəxsə mənəvi sarsıntı, iztirab verir.

Mənəvi zərər bilavasitə zərər vuran şəxsin hərəkətlərindən sonra zərərçəkmişin şüuruna təsir göstərməklə mənfi psixoloji reaksiyaya səbəb olur. Mənəvi zərər vətəndaşların hüquqlarının pozulmasının müstəqil nəticəsidir. O həm vurulmuş əmlak zərəri ilə birlikdə yaxud əmlak zərəri vurulmadığı hallarda kompensasiya edilir.

Mənəvi zərər ödənilərkən mənəvi və fiziki iztirabların xarakteri və dərəcəsi, eləcə də cavabdehin təqsiri, əmlak vəziyyəti və s. vacib halların nəzərə alınması zəruridir və hər bir konkret halda belə zərərin ödənilməsi ilə bağlı xüsusatlar məhkəmənin mülahizəsinə görə müəyyən olunmalıdır.

“Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 7 №-li 03 noyabr 2008-ci il tarixli qərarının 2-ci bəndində göstərilmişdir ki, Azərbaycan Respublikası qanunvericiliyinin, «İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiya»nın müddəaları və Avropa İnsan Hüquqları Məhkəməsinin presedentləri baxımından «mənəvi zərər» anlayışı insanın anadangəlmə və ya qanun əsasında ona mənsub olan şəxsi qeyri - əmlak xarakterli hüquq və azadlıqlarının, habelə əmlak hüquqlarının pozulması nəticəsində mənəvi sarsıntı və iztirab keçirməsini ifadə edir. Zərərçəkən fiziki şəxsin mənəvi sarsıntı keçirməsi dedikdə, ona qarşı törədilən qanunsuz hərəkətin və ya hərəkətsizliyin şüurunda müəyyən mənfi psixi reaksiyaya səbəb olması, iztirab keçirməsi dedikdə isə onun sağlamlığının pozulması nəticəsində fiziki əzab çəkməsi anlaşılır. Mənəvi zərərin ödənilməsi ilə əlaqədar qanunvericiliyin müddəaları nəzərə alınmaqla şəxsə mənəvi zərər vurulması onun yaxın qohumlarını və ya iş yerini itirməsi, fəal ictimai həyat tərzindən məhrum olması, şəxsi, ailə və tibbi sirlərinin açıqlanması, şərəf, ləyaqət və işgüzar nüfuzunun ləkələnməsi, hər hansı başqa hüquqlarının müvəqqəti olaraq məhdudlaşdırılması və ya həmin hüquqlardan məhrum olması, sağlamlığına xəsarət yetirilməsi və s. hallarda özünü büruzə verə bilər. Mənəvi sarsıntı və iztirabın ağırlıq dərəcəsi mənəvi zərərin ödənilməsi tələbinin rədd edilməsi üçün əsas deyildir.

Həmin qərarın 4-cü bəndində isə göstərilmişdir ki, şəxsə mənəvi zərərin vurulması mənəvi sarsıntı və iztirablara səbəb olan istənilən xarakterli qeyri-hüquqi hərəkət və ya hərəkətsizlikdə (mülki, cinayət, inzibati və s. hüquq pozmalarda) ifadə oluna bilər. Zərərvuran şəxsin eyni əmələ görə mülki, inzibati və yaxud cinayət məsuliyyətinə cəlb edilməsi zərərçəkənin ondan həm də mənəvi ziyanın ödənilməsini tələb etmək hüququnu istisna etmir.

İşin hallarını nəzərə alaraq məhkəmə kollegiyası hesab edir ki, iddiaçı mənəvi zərərin ödənilməsini tələb etməkdə haqlıdır. Çünki cavabdeh «XXXX» Məhdud Məsuliyyətli Cəmiyyətinin hərəkətlərinə görə iddiaçı 2 ildən artıq müddətdə əmək haqqından məhrum olmuşdur. Ona görə də, cavabdehin hərəkətlərinin iddiaçının şüurunda müəyyən mənfi psixi reaksiyaya səbəb olması və nəticədə onun mənəvi sarsıntı keçirməsi şübhəsizdir.

Lakin kollegiya hesab edir ki, bu hissədə iddia qismən təmin edilməlidir.

Belə ki, qeyd olunan Qərarın 10-cu bəndində göstərilmişdir ki, mənəvi zərərin miqdarı işin konkret hallarından asılı olaraq məhkəmə tərəfindən müəyyən edilir. Bu zaman mənəvi zərərin baş verməsinə səbəb olmuş hərəkətin və ya hərəkətsizliyin təhlükəlilik dərəcəsi, bunun nəticəsində zərərçəkənin keçirdiyi mənəvi iztirab və sarsıntıların xarakteri və

ağırlığı, zərərvuran şəxsin təqsiri (qəsd və yaxud ehtiyatsızlıq) və əmlak vəziyyəti, zərərçəkən şəxsin fərdi xüsusiyyətləri (azyaşlı və yaxud qadın olması, səhhəti ilə əlaqədar mənəvi sarsıntı və iztirablara dözümü, peşə və sənəti, cəmiyyətdə nüfuzu və s.), habelə işin sair diqqətəlayiq halları nəzərə alınmalıdır. Zərərin məbləği ağlabatan və ədalətli olmalıdır.

Qeyd olunan halları nəzərə alaraq məhkəmə kollegiyası hesab edir ki, mənəvi zərərin əvəzi kimi 1000 manat ağlabatan məbləğ kimi müəyyənləşdirilməlidir.

Birinci instansiya məhkəməsi isə yuxarıda qeyd olunanları nəzərə almamış, maddi və prosessual hüquq normalarını pozmuş və iddianın rədd olunması barədə səhv nəticəyə gəlmişdir.

Beləliklə, məhkəmə kollegiyası belə nəticəyə gəlir ki, apellyasiya şikayəti qismən təmin edilməli, Mülki Prosessual Məcəllənin 385.1.1 və 385.1.4-cü maddələrində göstərilən əsaslara görə birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilməli və yuxarıda göstərilən əsaslara görə iddia qismən təmin edilməlidir.

Göstərilənlərə əsasən və Mülki Prosessual Məcəllənin 384.0.2, 392, 393, 405-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

**q ə t e t d i:**

İddiaçı XXXX oğlu tərəfindən verilmiş apellyasiya şikayəti qismən təmin edilsin.

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 2(006)- /2018 saylı mülki iş üzrə qəbul etdiyi 29 avqust 2018-ci il tarixli qətnaməsi ləğv edilsin.

İddia qismən təmin edilsin.

Ödənilməmiş əmək haqqına görə 55129,83 ABŞ dolları, əmək haqqının gecikdirilməsinə görə hesablanmış 290783,2 ABŞ dolları, ümumilikdə 345913,03 ABŞ dolları məbləğində pul vəsaiti və 1000 manat məbləğində mənəvi zərər cavabdeh “XXXX” MMC-dən tutularaq iddiaçı XXXX oğluna ödənilsin.

Qalan hissədə iddia təmin edilməsin.

Qətnamədən rəsmi qaydada verildiyi gündən 2 ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya şikayəti verilə bilər.

Sədrlik edən: imza

Hakimlər: imzalar

Əsli ilə düzdür:

Hakim Raqib Qurbanov